DİVAN-İ ƏRĞƏVAN (21-26)

DIVAN-I ƏRĞƏVAN(21)

BUĞ(21)

bir dənin şən ürəyi ah içərək uğ biçim , uğ gün ,
nə kimi var diləyir özdibi , bir zuğ biçim , uğ gün ?

san, duraqsız zamanın durma devir yırğası darğın ,
bəlkə bir dən göyərir ,min dedi ,uğ yuğ biçim ,uğ gün!

yer soyuq , göy sazı sus , il on-üç aylıq dönür anlar ,
dözəsiz döngə savi , mizrağıdır çuğ biçim , uğ gün .

yox umid ,dən içi bezgin , qırov almış yeri , der buz ,
bir soluq yolda çəkir ,çığ yükünü ,buğ biçim ,uğ gün .

sanki bir ordu gəlir köynəyi qırmız , topu gömgöy ,
son döyüş buyruğu vermiş ,yeni başbuğ biçim ,uğ gün .

indi dən qardələn olmuş , devirir qar boyağın çün ,
yaşa sevdası çıçəksoy danışr , muğ biçim , uğ gün .

M.ƏrğəvanDIVAN-I ƏRĞƏVAN (22)

DÖN(22)

qıyır urman öz ucun ,çağ sevişir , güz ilə çin çin ,

quşa quşluq yatağı , dis yeri çün ,dis çilə çin çin .

kim qoşur köç dizisi , bəlli-bəlirsiz hara sür hə !?

yuvacıq boş ama göy bir qalabaçin bilə çin çin .

öldür öl get qoxusu qurğudu , bilmir  saat  indi ,

çünki yersiz didişir , yerlini dibdən  silə çin çin .

direniş səmfonusu  banladı bayquş gecə çılpaq ,

bir qımıl-qıl yürüşü qıldı yorun ,dön zilə çin çin .

bu soraq hər yeri tir tir devir an ,qıl yürü gəl gəl ,

inqəsi  dindini  sar  der diri  dildən  dilə çin çin .

anidən güz harasız , dön edimi pir pinar an ,hey,

geri dön gəl  soyağacından  ucublar gilə çin çin .

M.Ərğəvan

DIVAN-I  ƏRƏĞƏVAN(23)

MIS(23)

ağ izim yer didərək , göy qaraşın kis ara kis .

görürəm bir sayı , saysız üşünür , sis ara sis .

ama durğun duramır ,var oluş oylum günü o ,

bir ləpirgin dizidir , son  zamana , his ara his .

nədən aydın ,sonucun ,bil bilə bilmək eləbil ,

bir polis  suçlu  yalınquq  aparır dis ara dis .

yüruyən nərduvan uyğun  təpəri çağ ötərək ,

oyalanmış deyil andım ,sana say his ara his .

hər yönü vırnıxaraq ,durma devir ,qır qıra kim ,

qımız udqunçu çapar ,çapda çapır çis ara çis .

pas geyinmiş ürəyim doğdu bəbək sezdi onu ,

demə qısraq başıdı  yetdi biçim , mis ara mis .

M.ƏRĞƏVANDIVAN-I ƏRĞƏVAN (24)

ÜSS(24)

indi öz su kimi , öz özdə axışqan bilə bil ,

öz üçün öz ışığı , sözdə gedir can bilə bil .

bu alan kibriti söz , söz öpür an bir kağızı ,

yanğı şəklində ipəksu sevişir , an , bilə bil .

iki qəlbin yanışı sev közü , basqın kül ara ,

bir kilit oldu kimi açqı gəzir , san bilə bil .

sevişin tər beşiyindən , ötərək döl soluğu ,

doğurur çözçü yalınquq balalıqdan bilə bil .

yeni devrim özü bu , əsgi köçür , söz qadını ,

bəsləyir səs çağasın ,çün çalacaq çan bilə bil

hansı insandı deyir , öz dəyəri üssüdə göz ?

görəcək gün bulacaq , üss ilə vidan bilə bil .

M.ƏrğəvanDIVAN-I ƏRĞƏVAN(25)

DAMCI(25)

unudulmuş deyə bir kor ulayır dığ-dığı gün .

titrəyir daşlar içi . göylərə səs saldığı gün .

bilə görməzliyi düşmüş ayaq altında açıq ,

arayır öz ışığın , göz çarasız qaldığı gün .

atasağınlıq üçün hansı saman yolda bulud?

eşidir xəstə səsin , tam eyetim aldığı gün .

öncə aydan ilə gündən diləyir borc Emini ,

yox yanıt buldu ,nədən ,al gilənar kaldığı gün .

ıldırımdan yeni sav gəldi saat durduğu an ,

dedi gözyaşıdı Em , mən çağı saz çaldığı gün .

kökləyir sazını , yağmurlu bulud tans edərək ,

qara topraq göz açır , damcı yerə saldığı gün .

M.ƏRĞƏVAN

DIVAN-I ƏRĞƏVAN (26)

BIR(26)

bir dişi dün alaturka ödün arxın çevirir .

onu çılğın ləpələr öc ilə çin-çin devirir .

sonda susqun soluğun giz aparır ,giz hara gün?

gövdəsin dişlərə dişlik gecə qapdırqın edir .

o susr yerdə açır imgə , xəyal pərdəsini ,

sanki uraman kökü öz yengi dibin , öz sezirir .

görünür orda ağac , qırda çiçək , göldə çilik ,

bir ürəkdir yanaraq , su boyu su , sevgi verir .

könül açdım yaxınam , söylədi sus-sus geri dön ,

sənə pay düşməz odum , bil odu, BIR, məndə sevir .

siqar olmuş gəzirəm , özgə dodaqlarda kimi ,

oluram tüstü açıq , çün uyamır mən sevi BİR .

M.Ərğəvan